

*Biz siyasi leksikona "Zəngəzur dəhlizi" sözünü daxil etmişik.*

*Nəinki regionun, dünyanın aparıcı kütləvi informasiya vasitələri Zəngəzur dəhlizi haqqında danışırlar, yazırlar.*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti.***

O ki qaldı, Qarabağ və Şərqi Zəngəzurdakı işlərə, orada hələ ki, heç kim yaşamır. Ona görə biz orada görüləcək işləri mərkəzləşdirilmiş qaydada etməliyik və edirik. Keçən il genişmiqyaslı abadlıq-quruculuq işlərinə start verildi, böyük infrastruktur layihələri icra edildi... . Bu fikirləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 12-də keçirilən bu ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə bildirib.

Dövlət başçısı müşavirədəki yekun nitqində hədəfləri də açıqladı. Tarixi zəfərimizdən sonrakı dövrdə qarşıda duran əsas vəzifə bərpa və quruculuq işlərini müasir dövrün tələbləri səviyyəsində həyata keçirmək, soydaşlarımızın Böyük Qayıdışını təmin etməkdir. Bunun üçün əsas məsələlərdən biri ərazilərin minalardan təmizlənməsidir. Minalardan təmizlənmə prosesini sürətləndirmək üçün bu il dövlət büdcəsində 100 milyon manata yaxın vəsait nəzərdə tutulub. Yeni texnikanın alınması təmin və Laçın rayonlarında hərbi əhəmiyyətli yolların çəkilişi davam etdiriləcək. "Tarixdə heç vaxt yollar olmayan yerlərdə, ərazilərdə təkcə keçən il 700 kilometrə yaxın yollar çəkilib. Yəni Azərbaycan-Ermənistan sərhəddinə qədər bu yollar çəkilib", - deyə Prezident İlham Əliyev bildirib. Füzuli-Hadrut avtomobil yolunun uzunluğu 12 kilometrdir. I texniki dərəcəli bu yol başlanğıcını "Zəfər yolu"ndan götürür və yeni inşa edilən Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yoluna birləşir. Yol 4 hərəkət zolaqlı olacaq. Hərəkət zolaqlarına uy- və 18 yoldəyişdirən qurğu quraşdırılıb. Köçərli və Təzəkənd stansiyalarının inşası aparılır. Ümumilikdə birinci mərhələ üzrə tikinti-quraşdırılma işləri 65 faiz yerinə yetirilib.

2021-ci il fevralın 14-də təməli qoyulan Horadiz-Ağbənd dəmir yolu xəttinin inşasının da 2023-cü ildə yekunlaşdırılması nəzərdə tutulur. "Azərbaycan Dəmir Yolları" QSC-nin dəmir yolu xəttinin inşası ilə bağlı son açıqlamasında deyilir ki, xəttin layihələndirmə və tikinti işlərini, həmçinin texniki nəzarəti Azərbaycan və Türkiyə şirkətləri yerinə yeti-

# Böyük Qayıdış

## *Həyata keçirilən infrastruktur layihələrinin vüsəti o günü daha da yaxınlaşdırır*

edilir, o cümlədən ən müasir texnika, dronlar və digər müasir cihazlar alınır. Ağdam və Füzuli şəhərlərinin Baş planları təsdiqlənib və buna uyğun olaraq iş aparılır. Şuşa, Cəbrayıl, Kəlbəcər, Zəngilan, Qubadlı şəhərlərinin, Hadrut və Suqovuşan qəsəbələrinin Baş planlarının hazırlanması barədə tapşırıqlar verilib. Həmçinin, elektrik enerjisi təchizatı prioritetdir. Azad edilmiş ərazilərdə keçən il 20 meqavat gücündə 4 Su Elektrik Stansiyası inşa edilib. Bu il 5 stansiya "Azərenerji" tərəfindən bərpa ediləcək və bu stansiyaların gücü 27 meqavata bərabər olacaq. Nəqliyyat infrastrukturunun bərpası və yenidən qurulması da görüləcək işlər sırasındadır. Bərpa-quruculuq işləri çoxsahəli və çoxşaxəlidir. Artıq bu il Zəngilanın Üçüncü Ağalı kəndi "ağıllı kənd" layihəsi çərçivəsində bərpadan sonra sakinlərini qarşılayacaq. Bu il həm də, Füzulinin Dövlətyarlı kəndinin qurulmasına başlanılacaq. Azad edilmiş digər rayonlarda kəndlərin yenidən qurulması layihəsi hazırlanır, onlar şəhərlərlə paralel olaraq bərpa ediləcəkdir.

İşğaldan azad edilmiş ərazilərdə həyata keçirilən infrastruktur layihələri sırasında yol tikintisi böyük əhəmiyyət kəsb edir. Bu baxımdan da bərpa-quruculuq işlərinə ilk olaraq yeni yolların çəkilişindən başlanılıb. Artıq "Zəfər yolu" hazırdır. Zəfər yolunun istifadəyə verilməsi böyük rəmzi məna daşıyır. Hazırda Şuşaya aparan ikinci avtomobil yolunun (Əhmədbəyli-Füzuli-Şuşa), bu yol üzərində inşa olunan tunel və körpülərin tikintisi də intensiv şəkildə davam etdirilir.

Prezidentin bu ilin birinci rübünün nəticələrinə həsr olunmuş müşavirədə bildirdiyi kimi, bu il Naftalandan Talış kəndinə qədər çəkilən yollar tam istismara verilməlidir. Bu, eyni zamanada, Naftalanı Suqovuşanla birləşdirəcək. Hər iki yaşayış yeri turizm üçün çox əlverişlidir. Laçın şəhərindən yan keçən yeni alternativ yolun istifadəyə verilməsi də bu ilə planlaşdırılır. Bu yolun da çox böyük əhəmiyyəti var. Cari ildə istifadəyə veriləcək yolların arasında Füzuli-Hadrut, Qubadlı-Eyvazlı və digər yollar da var. O cümlədən Kəlbəcər ğun olaraq yol yatağının eni 21 metr, yolun hərəkət hissəsinin eni isə 14 metr təşkil edəcək.

Paralel şəkildə Bərdə-Ağdam, Kəlbəcər-Laçın avtomobil yolunun və təxminən 4 kilometrlik tunelin inşası sürətlə davam etdirilir. Xudafərindən Qubadlıya, oradan isə Laçına gedən magistral yol, eləcə də Horadiz-Ağbənd, Ağdam-Füzuli yolları çəkilir. Ən vacib yollardan biri Toğana-Kəlbəcər avtomobil yoludur. Bu yol və 12 kilometrlik tunel istifadəyə verildikdən sonra daha Murov aşırımından keçməyə ehtiyac qalmayacaq və məsafə qısalacaq. Eyni zamanda, Toğana-Kəlbəcər-İstisu avtomobil yolunun tikintisi də davam edir.

2-4 hərəkət zolaqlı, uzunluğu 81 kilometr olan Toğana-Kəlbəcər-İstisu avtomobil yolunun tikintisinə 2021-ci il iyulun 23-də start verilib. Magistral yolun üzərində yerləşən 11,6 kilometrlik Murovdağ tunelinin təməli Prezident İlham Əliyev və Mehriban Əliyevanın iştirakı ilə 2021-ci il avqustun 16-da qoyulub. Uzunluğu 72,8 kilometr olan Kəlbəcər-Laçın avtomobil yolunda inşası nəzərdə tutulan 3.4 kilometr uzunluğunda tunelin tikintisinə də həmin tarixdə başlanılıb.

İşğaldan azad olunmuş ərazilərdə yaradılan müasir yol-nəqliyyat infrastrukturunun digər mühüm bir istiqamətini dəmir yollarının inşası təşkil edir. Hazırda Bərdə-Ağdam dəmir yolunun tikintisi aparılır. Bu yolun 2023-cü ildə istifadəyə verilməsi nəzərdə tutulur. Xatırladaq ki, dövlət başçısının 2020-ci ilin noyabrında verdiyi sərəncama əsasən, Bərdə-Ağdam dəmir yolu xəttinin tikinti-quraşdırma işlərinə 2020-ci ilin dekabrında start verilib. Prezident İlham Əliyev bildirib ki, bununla paralel olaraq Ağdam və Füzulidə dəmir yolları, vağzallar da inşa edilməlidir. Yol xəttinin uzunluğu 47,1 kilometrdir. Layihə çərçivəsində 4 stansiyanın, 3 körpünün, ümumilikdə 100-dən çox süni mühəndis qurğusunun tikintisi planlaşdırılır. Tikinti işləri iki mərhələdə həyata keçirilir. Bərdə-Köçərli-Təzəkənd stansiyalarını əhatə edən mərhələ üzrə 16,8 kilometr yolun üst qurucusu elementləri




# Azərbaycanın
## Cənubi Qafqazda yaratdığı geosiyasi reallıqlar

rir. Dəmir yolu xəttinin öz oxu üzrə uzunluğu 110,4 kilometrdir. Layihə çərçivəsində Horadiz, Mərcanlı, Mahmudlu, Soltanlı, Qumlaq, Həkəri, Mincivan, Bartaz, Ağbənd olmaqla, ümumilikdə 9 stansiyanın inşası planlaşdırılır. Eyni zamanda, bu istiqamətdə 300-ə yaxın süni mühəndis qurğusunun, o cümlədən 3 ədəd tunel, 41 ədəd körpü, 3 ədəd qalereya, 7 ədəd yolötürücüsünün tikintisi nəzərdə tutulur. Dəmir yolu xəttində tikinti işləri minatəmizləmə prosesinə paralel aparılır və indiyə qədər 82 kilometr ərazi minalardan təmizlənib. Tikinti-quraşdırma işləri üç mərhələdə həyata keçirilir. Birinci mərhələ 30 kilometrlik ərazidə aparılmaqla, Horadiz, Mərcanlı, Mahmudlu və Soltanlı stansiyalarını əhatə edir. Burada torpaq işləri 97 faiz, süni qurğular 93 faiz, dəmir yolunun üst quruluşu elementləri isə 80 faiz həcmində tamamlanıb. Bu mərhələdə ümumi icra vəziyyəti 89 faiz təşkil edir.

İkinci mərhələyə Soltanlı, Qumlaq, Həkəri və Mincivan stansiyaları daxildir və 30 kilometrdən 85 kilometrə qədər ərazidə həyata keçirilir. Üçüncü mərhələ Mincivan, Bartaz və Ağbənd stansiyalarını əhatə etməklə 85-110, 4 kilometrlik ərazidə aparılır. Hazırda həmin ərazidə minalardan təmizlənmə işlərinə hazırlıq görülür.

Bütün bunlar onu göstərir ki, Böyük Qayıdış uzaqda deyil, çünki işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən infrastruktur layihələrinin geniş vüsət alması o günü daha da yaxınlaşdırır.

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**